# Yaponiya Dövlət Təqaüd Proqramı（Kyokensei）
# Tez-tez soruşulan suallar

## ＜Proqrama Seçimlər haqqında＞

**Sual 1:** Proqrama müraciət və seçim prosesi nədən ibarətdir?
⇒ Yaponiyanın Azərbaycandakı Səfirliyinə müraciət sənədlərinin təqdim olunması→Yazılı imtahan→Müsahibə
İmtahan üçün Yaponiyaya getməyə ehtiyac yoxdur.
Səfirlikdə keçiriləcək seçim prosesində müvəffəq olmuş şəxslərin müraciət sənədləri, yazılı imtahan və müsahibə nəticələrinin əsasında MONBUKAGAKUSHO (təqaüdü təqdim edən Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyi) ilə universitetlərin arasındakı danışıqlar olacaqdır. Son olaraq nəticənin elan olunması iyul-avqust aylarına təsadüf edəcəkdir.

**Sual 2:** Mən ali təhsil müəssisəsi (universitet) müəllimiyəm. Bu proqramda iştirak edə bilərəmmi?
⇒ Xeyr, bu proqram sadəcə ibtidai və orta məktəblərdə tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur.

**Sual 3:** Mən riyaziyyat (və ya hər hansısa spesifik fənn) müəllimiyəm. Mən məhz riyaziyyat (ixtisasım olan fənn) üzrə araşdırma etmək üçün bu proqrama müraciət edə bilərəm?
⇒ Bu proqram təhsil və tədris metodologiyası, yapon təhsil sisteminin öyrənilməsi, məktəbin və təhsilin idarə olunması kimi məhz təhsili əhatə edən ümumi sahələrin müəllimlərə aşılanması üçün nəzərdə tutulmuşdur. Odur ki, hər hansısa konkret fənn üzrə araşdırma deyil, ümumi tədris metodologiyası, kurrikulum və təhsilin idarə olunması sahələri üzrə müraciət olunması vacibdir. Hər hansısa spesifik sahə üzrə araşdırma etmək istəyən şəxslər tədqiqatçı tələbələr üçün nəzərdə tutulmuş dərəcə proqramı KENKYUSEİ proqramına müraciət edə bilərlər.

**Sual 4:** Hal-hazırda mənim müəllimlik təcrübəm cəmi 5 il deyildir. Müraciət edə bilərəm?
⇒ Bu proqrama bir qayda olaraq, 2024-cü ilin 1 oktyabr tarixində ən azı 5 il müəllimlik təcrübəsi olan orta məktəb müəllimləri müraciət edə bilərlər. Əgər qeyd olunan zamanadək təcrübəniz 5 il olarsa, müraciət edə bilərsiniz.

**Sual 5:** Kyokensei proqramı üzrə hər hansısa dərəcə almaq olurmu?
⇒ Xeyr, bu proqram dərəcə proqramı olmadığı üçün Yaponiyada təhsil alacağınız universitetdə magistr pilləsi tələbəsi kimi daxil olmaq mümkün deyildir. “Kyokensei” sadəcə Yaponiyada təhsil sistemi, tədris metodologiyası ilə bağlı təcrübələrin artırılması üçün nəzərdə tutulmuş təlim proqramıdır. Dərəcə almaq üçün bu proqram uyğun deyildir.

**Sual 6:** Yapon dilini bilməyən şəxslər də proqramda iştirak edə bilərlər?

⇒ Kifayət qədər yapon dili biliyi olmayan şəxslər də proqrama müraciət edə bilərlər. Lakin, Yaponiyaya çatdıqdan sonra, onun ixtisası üzrə gərək olan kifayət qədər yapon dili biliyi olmazsa müraciətçidən 6 aylıq yapon dili kurslarında iştirak etməsi tələb oluna bilər.

**Sual 7:** Kyokensei proqramı üzrə təhsil müddətini uzatmaq mümkündür?

⇒ Kyokensei proqramı yalnız təqaüdün təqdim olunacağı müddət ərzində Yaponiyada olmaq imkanı verir. Proqram bitdikdən sonra təqaüdün və ya proqramın uzadılması mümkün deyildir. Kyokensei proqramına müraciət zamanı nəzərə alınmalı ən vacib məqam odur ki, müraciətçi Yaponiyadakı təhsil/təlim müddəti bitdikdən sonra, mütləq şəkildə öz mənsub olduğu məktəbə qayıtsın və orada müəllimlik fəaliyyətini davam etdirsin. Odur ki, müraciət etməzdən öncə direktorunuzdan, müdirinizdən akademik məzunuyyətin verilməsinin mümkün olub-olmaması, siz Yaponiyada təlim keçəcəyiniz zamanda iş yerinizin saxlanılması və qayıtdıqdan sonra dərhal işinizə davam edə biləcəyiniz haqqında öncədən ciddi şəkildə araşdırmağınız, icazə almağınız vacibdir. Bu şərtə cavab vermədiyiniz təqdirdə, MEXT sizə təqdim olunan təqaüdü geri istəmək hüququna malikdir.

**Sual 8: Seçimlərə ən çox təsir edən amil nədir?**

⇒ Seçimlər sizin təqdim etdiyiniz sənədlər, yazılı imtahan və müsahibə nəticələri əsasında ümumi şəkildə qiymətləndiriləcəkdir. Sənəd qəbulu mərhələsindən başlayaraq sizin sənədləriniz detallı şəkildə incələnərək, yalnız bütün sənədləri qaydasında olan və "Müraciət formasında" Yaponiyada təhsil almaq/təlim keçmək, araşdırmaq istəyini dolğun və inandırıcı şəkildə təsvir edən, araşdırma mövzusunun aktuallığını izah edə biləcək şəxslər növbəti imtahan mərhələsinə keçə biləcəklər. Yaponiyada araşdırma mövzunuzun seçəcəyiniz universitetin proqramına uyğun olması da vacib şərtlərdən biridir. Yəni, sənəd seçim mərhələsində artıq ilkin ciddi ələnmələr olacağı üçün, bütün sənədlərin dolğun şəkildə yazılması və təqdim olunması vacib amillərdən biri olacaqdır. Yazılı imtahan nəticələri da hər zaman olduğu kimi həlledici məqamlardan biridir.

**Sual 9: Keçən ilki seçimlərdəki göstəricilər indiki seçimlərə təsir edəcəkmi?**

⇒ Xeyr, əvvəlki illərin nəticələri yeni seçimlərə təsir etmir. Siz yalnız cari ildəki göstəricilərinizə əsasən qiymətləndirilirsiniz.

**＜Müraciət sənədləri və Yazılı imtahan və Müsahibə haqqında＞**

**Sual 1:** Yazılı imtahanın məzmunu nədən ibarətdir?
⇒ İngilis dili üzrə imtahan 1 saat (cəmi 100 bal), yapon dili üzrə imtahanı 100 dəq. (cəmi 100 bal) sürəcəkdir. Dinləmə (listening) və ya danışıq (speaking) üzrə suallar olmur.

**Sual 2:** Mən yapon dilini bilmirəm. Yapon dili imtahanında iştirak etmək mütləqdir?
⇒ Bəli, hər iki imtahanda iştirak mütləqdir. Yapon dili imtahanında "0" bal olarsa, hər iki imtahandan kəsilmiş hesab olunacaqsınız.

**Sual 3:** Mənim TOEFL/ IELTS üzrə sertifikatlarım vardır. Yenə də ingilis dili imtahanında iştirak etməliyəm?
⇒ Bəli, TOEFL/ IELTS sertifikatlarınız olsa da belə, ingilis dili imtahanında iştirakınız vacibdir. Sizin dil bacarığınızın qiymətləndirilməsi yazılı dil imtahanı əsasında olacaqdır.

**Sual 4:** İmtahan balımı öyrənmək istərdim.
⇒ Təəssüf ki, imtahan balları açıqlanmır və eyni zamanda imtahandan keçməmə səbəbləri də açıqlanmayacaqdır.

**Sual 5:** Müsahibə hansı dildə olur?
⇒ Müsahibə dili kimi ingilis və ya yapon dilini seçə bilərsiniz.

**Sual 6:** Seçimlərdən müvəffəq olmama səbəbini öyrənə bilərəm?
⇒ Xeyr, seçim prosesinin müxtəlif mərhələlərində (sənəd qəbulu, imtahan, müsahibə) müvəffəq olmama səbəbləri açıqlanmır. Bununla bağlı anlayışınızı xahiş edirik.

**Sual 7:** Mənim ibtidai və orta məktəblərdə müəllimlik təcrübəm toplam olaraq 5 ildən çoxdur. Lakin, indiyədək bu illər ərzində bir neçə məktəbdə işləmişəm. İş yerimdən hansı formada arayış sənədi təqdim gərəkdir?
⇒ Əgər sizin toplam təcrübəniz 5 ildən artıqdırsa proqramda iştirak edə bilərsiniz. Bunun üçün sizin təqdim edəcəyiniz iş yeriniz olmuş məktəblərdən arayışlarda təcrübə olaraq qeyd olunacaq illərinin sayının toplam 5 ildən artıq olması kifayətdir. Yəni, sizin cəmi təcrübənizin 5 ildən artıq olduğunu sübut etməyiniz gərək olduğu üçün, hər bir məktəbdən sənəd götürməyiniz və onları toplayan zaman ümumi sayın 5 ildən artıq olmasına diqqət yetirməyiniz gərəkdir.

**Sual 8:** "Müraciət forması" sənədində ən vacib məqamlar hansılardır?
⇒ Bütün məqamlar vacib olsa da, xüsusilə diqqət yetirməli olduğunuz məqamları qeyd etmək istərdik:

- "Müraciət formasında" ad və familiyanızın mütləq şəkildə xarici pasportunuzda qeyd olunduğu formada daxil edilməsi gərəkdir.

- 5-ci punktda “Yaşınız” hissəsində 2025-ci ilin 1 aprel tarixində olacağınız yaşı qeyd etmək
- Yalnız çap hərflərlə və böyük hərflərlə yazmaq
- ***“Akademik təcrübəniz”*** hissəsində 11 illik təhsilinizi ibtidai, ümumi orta (secondary) və tam orta (high school) təhsil olmaqla, 3 hissəyə bölərək yazmağınız gərəkdir. Məsələn, 11 illik təhsilinizi eyni məktəbdə alsanız belə, bütün təhsilinizi 3 hissəyə bölərək, illərlə qeyd etməyiniz gərəkdir. Sonda təhsil aldığınız illərin **ÜMUMİ sayını** (məsələn, 15 il) qeyd etməyiniz gərəkdir.
  Məsələn,
  İbtidai təhsil (4 il): 1, 2, 3 və 4-cü siniflər
  Ümumi orta təhsil (5 il): 5,6, 7, 8 və 9-cu siniflər
  Tam orta təhsil (2 il): 10 və 11-ci siniflər
- 20-ci punktda “Yaponiyada tədqiqat planınız” hissəsinin dolğun şəkildə doldurulması gərəkdir. Bu punkt universitet seçimi, professor seçimi mərhələsində qərar üçün vacib amillərdən biridir. İngilis dilində yazan zaman minimum 150 söz olması gərəkdir. Tədqiqat planınızı detallı şəkildə punktlara bölərək qeyd etməyiniz gərəkdir. Əgər siz iki fərqli mövzularda araşdırma ilə müraciət etmək istəsəniz, bu mümkün ola bilər. Həmin zaman, tədqiqat planında hər iki mövzu ilə bağlı ərtaflı əhatə etməyiniz gərəkdir. Bu zaman universitet seçimi zamanı da hər iki ixtisas aid olan kursların olması və ya 5 seçimdən müəyyən hissəsi birinci mövzuya, digərinin isə 2-ci mövzuya aid olması gərək olacaqdır.

**Sual 9:** “*Bitirdiyim universitetdən qiymət vərəqəsi” və “Bitirdiyiniz Universitetin Diplomu”* sənədləri hansı formada təqdim olunmalıdır?
⇒ Sənədləri notarisuda tərcümə (ingilis dilinə) və təsdiq olunmuş şəkildə təqdim etməyiniz gərəkdir. *“Qiymət vərəqəsi” (“Transcript”)* sənədi son bitirdiyiniz universitetin (bakalavr və ya magistratura) hər bir təhsil ilinin qiymətlərini, ortalama balını (GPA) və balın hesablama sistemini əks etdirən sənəd olmalıdır. Eynilə, diplom da son bitirdiyiniz təhsil müəssisinin olmalıdır. Yəni, son təhsil bakalavrdırsa- Bakalavr Diplomu, magistr təhsilidirsə, həm Bakalavr, həm də Magistr diplomu olmalıdır.

**Sual 10:** İş yerindən arayış sənədi Azərbaycan dilində olur. Onu hansı şəkildə təqdim etməyim gərəkdir?
⇒ İş yerindən arayış sənədiniz azərbaycan dilində olarsa, həmin sənədin notariusda tərcümə və təsdiq olunmuş möhürlü versiyasını təqdim etməyiniz gərək olacaqdır. Bu qayda eynilə universitetdən diplom və ya qiymət vərəqəniz üçün də keçərli olub, notariusda tərcümə və təsdiq olunmuş formada təhvil verilməsi gərəkdir.

**Sual 11:** *“Tövsiyə məktubu”* kimin tərəfindən verilməlidir?
⇒ Tövsiyə məktubu işlədiyiniz məktəbin direktoru və ya rəhbərlikdən məsul şəxs tərəfindən təqdim olunmalıdır.

**Sual 12:** "Sağlamlıq haqqında arayış" sənədi necə təqdim olunmalıdır?
⇒ Bu sənədin hazır formatı vardır və yalnız o formatda təqdim olunması gərəkdir. Sənəd ingilis dilində həkim tərəfindən tərtib olunmalı, üzərində həlimin imzası və xəstəxananın möhürü olmalıdır. Sənədi dolduran zaman həkimdən sizin göstəricilərinizi sənəddə tələb olunan ölçü vahidlərində qeyd etməsini xahiş edin. Sənədin 7-ci bölməsində "Müraciətçini tövsiyə edirsinizmi?" hissəsinə mütləq "YES" qeyd olunmasına diqqət yetirin. Əks halda sizin sənəd qəbul olunmayacaqdır.

**Sual 13:** Seçimlərdən müvəffəq olmadım. Müraciət sənədlərini geri götürə bilərəm?
⇒ Xeyr, səfirliyə təqdim olunan sənədlər geri qaytarılmır. Odur ki, yalnız bir nüsxədə olan orijinal sənədlərinizi ("Diplom", "Diploma əlavə" və ya digər sənədləri) verməməyiniz xahiş olunur. Həmin orijinal sənədin surətinin rəsmi təsdiq olunmuş versiyasını (məsələn, universitet tərəfindən surətin həqiqi olduğunun təsdiq olunması və s.) tədqim edə bilərsiniz.

## ＜Proqramın ümumi sistemi haqqında＞

**Sual 1:** Yaponiyaya getmək nə vaxta təsadüf edir?
⇒ Əgər müvəffəq olarsanız, 2025-ci il sentyabr və ya oktyabr ayı ərzində universitetin təyin etdiyi gündə Yaponiyaya getməyiniz lazım olacaq. Müraciətçilər Yaponiyaya gedəcəkləri günü özləri seçə bilməzlər.

**Sual 2:** Ailə ilə birlikdə Yaponiyaya getmək olar?
⇒ Bəli, mümkündür. Lakin, sizinlə birlikdə gedəcək ailə üzvləriniz üçün heç bir əlavə ödəniş (təhsil haqqı daxil olmaqla) olmayacaqdır. Eyni zamanda, ailə üçün ev tapmaq bir qədər çətin və daha bahalı ola bildiyi üçün bunu öncədən nəzərə almağınız xahiş olunur. Odur ki, ilk növbədə özünüzün Yaponiyaya tək gedib orada uyğun ev tapdıqdan sonra ailə üzvlərinizi Yaponiyaya dəvət etməyinizi məsləhət görürük.

## ＜Yaponiya universitetləri haqqında＞

**Sual 1:** Hansı universitetlərdə təhsil almaq olar?
⇒ Elan mətnində qeyd olunmuş *"Universitetlərin kataloqu"* sənədi ilə tanış olub oradan istədiyiniz universiteti seçə bilərsiniz. Dərslər əsasən yapon və ya ingilis dillərində olur. Öz tədqiqat mövzusu və ixtisasınıza uyğun olan universitetlərin və kursların seçilməsi vacibdir.

**Sual 2:** Proqramı bitirməyimizi təsdiq edən sertifikat verə bilərsinizmi?
⇒ 1 il və ya 1 il yarımlıq təlim proqramını bitirdikdən sonra, sertifikat təqdim olunur. Lakin, həmin sənəd rəsmi dərəcə sənədi kimi hesab olunmur.

**＜Yaponiya həyatı barədə＞**

**Sual 1:** Yaponiyada təhsil aldığım müddətdə işləmək mümkündürmü?

⇒ Bəli, mümkündür. Lakin, tələbə vizası olduğu üçün işləmə saatlarında məhdudiyyət vardır. Nəzərinizə çatdırmaq istərdik ki, işləməyi qadağan edən universitetlər də vardır. Odur ki, ilk öncə universitetinizdən bu barədə məlumat almağınızı tövsiyə edirik.

**Sual 2:** Yaponiyada qalacağım yer haqqında məlumat verə bilərsinizmi?

⇒ Xarici tələbələr üçün nəzərdə tutulmuş xüsusi yaşayış yerləri (yataqxanalar) olan universitet olarsa, müraciət etdikdən sonra orada yaşamağınız mümkün ola bilər. Xarici tələbələr üçün nəzərdə tutulmuş yataqxananın olub-olmaması haqqında məlumatı "Universitetlərin kataloqu" sənədindən oxuya bilərsiniz. Tələbə yataqxanasında yaşamağınız mümkün olmazsa, digər evlərdə kirayə qalmağınız lazım olacaqdır.

**＜Proqram bitdikdən sonra＞**

**Sual 1:** Proqram bitdikdən sonra Yaponiyada qalıb işləyə bilərəmmi?

⇒ Xeyr. Təhsil müddəti bitdikdən sonra mütləq şəkildə Azərbaycana qayıtmağınız və proqrama müraciət zamanı işlədiyiniz məktəbdə yenidən müəllimlik fəaliyyətinə davam etməyiniz gərəkdir. Azərbaycana qayıtmayan və yenidən məktəbdə müəllim kimi çalışmayan şəxslərdən Yaponiya hökuməti tərəfindən ayrılan təqaüd məbləğinin geri qaytarılması tələb oluna bilər deyə, bu məqama diqqət yetirməyiniz xahiş olunur.